

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 206 (21.358)

22 oktyabr 2015-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymətı 20 qəpik

## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 21-də Sabunçu Məhkəmə Kompleksinin yeni binasının açılışında iştirak edib.

Ədliyyə naziri Fikrət Məmmədov yeni binanın inşası və burada yaradılan yüksək şərait barədə dövlətimizin başçısına məlumat verib.

Prezident İlham Əliyev Sabunçu Məhkəmə Kompleksinin yeni binasının rəmzi açılışını bildirən lenti kəsib.

Prezident İlham Əliyev məhkəmə zallarında yaradılan şəraitlə tanış olub.

Məlumat verilib ki, kompleksdə 14 məhkəmə iclas zalı – cinayət işlərinin baxıldığı 4 və mülki işlərin baxıldığı 10 zal fəaliyyət göstərir. Zallarda vəkillər, dövlət ittihamçıları, şahidlər və icra məmurları üçün otaqlar ayrılıb.



Sonra "Elektron məhkəmə" informasiya sisteminin təqdimatı olub.

Dövlətimizin başçısı Sabunçu Məhkəmə Kompleksində yaradılan şəraitdən razılığını bildirib, tapşırıq və tövsiyələrini verib.

* * *

Oktyabrın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda Nəriman Nərimanovun heykəli, Hüseyn Cavid və Parlament prospektləri ətrafında yeni çəkilən yolların, bu ərazidə yenidən qurulan küçə və prospektlərin, yeni salınan parkların açılışında iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci il 21 oktyabr tarixli Sərəncamı ilə Azərbaycanda həmkarlar hərəkatının inkişafındakı xidmətlərinə görə bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının əməkdaşları da vardır.

**"Tərəqqi" medalı ilə**

Abbasova Leyla Rüstəm qızı

Məmmədova Məhsəti Rafiq qızı

Zamanov Zaman Məhərrəm oğlu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci il 21 oktyabr tarixli digər Sərəncamı ilə Azərbaycan Respublikasının sosial-ictimai və mədəni həyatında göstərdikləri xidmətlərə görə bir qrup şəxsə Azərbaycan Respublikasının fəxri adları verilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının əməkdaşları da vardır.

**"Əməkdar müəllim"**

Əhmədov Natiq Əhməd oğlu

Hüseynov Səbuhi Şulan oğlu

## Şərur rayonunun Yuxarı Yaycı kəndi abad yaşayış məntəqəsinə çevrilmişdir

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Naxçıvanın çox qədim tarixi, zəngin mədəni irsi, gözəl ənənələri vardır. Bizim bütün bu tarixi keçmişimiz və milli dəyərlərimiz lazımi səviyyədə qorunur və bununla bərabər, müasir şərait, müasir infrastruktur yaradılır. İnsanların yaşaması və işləməsi üçün bütün imkanlar vardır. İş yerləri açılır, məktəblər, xəstəxanalar tikilir, yollar çəkilir".***

Bu gün Naxçıvan Muxtar Respublikası öz inkişafının yeni mərhələsinə qədəm qoymuşdur. Həyata keçirilən islahatlar Şərur rayonunda da sosial tədbirlərin əhatə dairəsini genişləndirmişdir. Rayonun Yuxarı Yaycı kəndi də quruculuq tədbirlərindən sonra abadlaşmış, müasir infrastruktur yaradılmışdır.

## Yuxarı Yaycı kənd tam orta məktəbi əsaslı şəkildə yenidən qurulmuşdur

İnsan kapitalının formalaşmasında təhsilin xüsusi rolu vardır. Təhsil olmadan savadlı, hərtərəfli inkişaf etmiş gənclik yetişdirmək mümkün deyil. Bu səbəbdən də muxtar respublikada təhsilin davamlı inkişafı ilə bağlı tədbirlər görülür, məktəb binaları müasir tədrisin tələblərinə uyğun qurulur, informasiya texnologiyaları ilə təminat diqqət mərkəzində saxlanılır. Bu il Yuxarı Yaycı kənd tam orta məktəbinin binasında da yenidənqurma işləri aparılmışdır.

Oktyabrın 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Yuxarı Yaycı kənd tam orta məktəbinə gəlmiş, yaradılan şəraitlə maraqlanmışdır.

Məlumat verilmişdir ki, 2 mərtəbədən ibarət olan 144 yerlik məktəb binasında 3-ü elektron lövhəli olmaqla, 12 sinif otağı, kimya-biologiya laboratoriyası, hərbi kabinə, şahmat sinfi, kompüter otağı, müəllimlər otağı, kitabxana, bufet və idman zalı vardır. Məktəbin həyətində isə açıq idman qurğuları qoyulmuşdur.







Binada müasir tədris-texniki avadanlıqlar quraşdırılmış, zəngin fondu olan kitabxana istifadəyə verilmişdir. Məktəbin kitabxanasında 1210 dərslik və 2046 bədii ədəbiyyat vardır. Şagirdlərin kitabxanaya cəlbi üçün müxtəlif tədbirlər görülür, "Kitabxana günləri" və "Mütaliə saatları" keçirilir.

Yaycı kənd tam orta məktəbindəki sinif otaqları və fənn kabinələri ən müasir tədris avadanlıqları ilə təchiz olunmuş, kompüterlər internetə qoşulmuşdur. Kompüter otağında informatika dərslərinin keçirilməsi ilə yanaşı, digər fənlərə aid elektron dərsliklərdən istifadə də mümkündür. Elektron lövhələr isə şagirdlərin dərsdə fəal iştirakını təmin edir.

Elektron lövhəli sinifdə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi ilə muxtar respublikanın 207 ümumtəhsil məktəbi arasında distant dərs keçirilmişdir.

Kimya-biologiya laboratoriyasında müasir tədris və təcrübə avadanlıqları qoyulmuşdur. Qeyd olunmuşdur ki, məktəbdə şagirdlərin dəqiq elmlərə marağı artırılır. Bunun nəticəsidir ki, ali məktəblərə qəbulda bir şagird yüksək bal toplayaraq Azərbaycan Tibb Universitetinə qəbul olunmuşdur.

Muxtar respublikanın ümumtəhsil məktəblərində idman dərslərinin tədrisinə xüsusi diqqət yetirilir. Yuxarı Yaycı kənd tam orta məktəbində də geniş idman zalı yaradılmışdır.

Məktəblərdə şagirdlərin hərb sənətinə marağının artırılması vacib məsələdir. Gənclərdə ilkin hərbi biliklərin formalaşdırılması, onlarda hərbi-vətənpərvərlik hislərinin gücləndirilməsi bu sahədə kadr hazırlığına mühüm töhfə verir. Məktəbdə elektron lövhəli hərbi kabinənin istifadəyə verilməsi çağırışaqədərki hərbi hazırlıq fənninin hərtərəfli tədrisinə imkan verəcəkdir.

Ali Məclisin Sədri çağırışaqədərki hərbi hazırlıq fənninin tədrisi zamanı elektron dərsliklərdən istifadənin əhəmiyyətini vurğulamışdır.

Məktəbin müəllimləri ilə görüşən Ali Məclisin Sədri demişdir ki, ümummilli liderimiz Heydər Əliyev ölkəmizə hər iki rəhbərliyi dövründə məktəb işinə xüsusi diqqət yetirmişdir. Ulu öndər deyirdi ki, ***"Hər birimizə təhsil, bilik verən, yüksək intellektual səviyyəyə çatdıran məktəblərdir".*** Ona görə bu gün ölkəmizdə məktəblər müasir tələblər səviyyəsində qurulur. Yuxarı Yaycı kənd tam orta məktəbində də müasir şərait yaradılmışdır. Tədris prosesində informasiya texnologiyalarının imkanlarından istifadə olunacaqdır.

Ardı 2-ci səhifədə

Bu da şagirdlərin hərtərəfli hazırlanmasına imkan verəcəkdir.

“Məktəb yalnız savadlı gənclər deyil, həm də ölkəmiz üçün layiqli vətəndaşlar yetişdirməlidir”, – deyən Ali Məclisin Sədri Yuxarı Yaycı kənd tam orta məktəbinin nailiyyətlərinin qənaətləndirici olduğunu bildirmiş, bu münasibətlə kollektivə təşəkkür etmişdir.

Gənc müəllim Mirsədi Nemətov minnətdarlıq edərək demişdir: Yuxarı Yaycı kənd məktəbində tədris imkanlarının müasir tələblərə uyğunlaşdırılması, müəllimlərin fəaliyyəti üçün hərtərəfli şəraitin yaradılması, onların əməkhaqlarının artırılması muxtar respublikada təhsilə göstərilən qayğının nəticəsidir. Bu da ölkəmizin gələcəyinin daha da etibarlı olmasına təminat verir. Çalışacağıq ki, gənclər dövlətçiliyimizə sədaqət ruhunda böyüsünlər, yaxşı təhsil alaraq ölkəmizə və xalqımıza layiqli vətəndaş kimi yetişsinlər.

Məktəbin həyətində də geniş abadlıq işləri görülmüşdür.



## Dövlət qurumları üçün müasir iş şəraiti yaradılmışdır







Oktyabrın 21-də Yuxarı Yaycı Kənd Mərkəzinin açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak etmişdir.

Tədbirdə Şərur Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Məmmədov çıxış edərək demişdir ki, Naxçıvan Muxtar Respublikasında tikinti-quruculuq işləri geniş miqyas alıb. Bu işlər Şərur rayonunda da davam etdirilir. Son illər rayonun kənd yaşayış məntəqələrində məktəb, kənd və xidmət mərkəzlərinin istifadəyə verilməsi, Şərur şəhərində geniş abadlıq işlərinin aparılması əhali tərəfindən rəğbətlə qarşılanır. Bütün bunlar, bütövlükdə, rayon əhalisinin sosial rifahının yaxşılaşdırılmasına müsbət təsir göstərmişdir. Cari ilin ötən dövrü ərzində rayonun 7 yaşayış məntəqəsində tikinti-quruculuq işləri aparılmışdır. Artıq Şərur rayonunun 40 kəndi kompleks abadlaşdırılmışdır. Yuxarı Yaycı kəndində yaradılan infrastrukturlar da kəndin inkişafında yeni mərhələnin əsasını qoymuşdur. İbrahim Məmmədov yaradılan şəraitə görə rayon sakinləri adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Yuxarı Yaycı kəndinin muxtar respublikanın abad yaşayış məntəqələri sırasına daxil olduğunu bildirmiş, bu münasibətlə sakinləri təbrik edərək demişdir: Ölkəmizdə hər bir sahənin inkişafı qəbul olunmuş dövlət proqramlarına uyğun olaraq həyata keçirilir. Bu gün muxtar respublikada aparılan quruculuq tədbirləri də ölkəmizdə icra olunan dövlət proqramlarının tərkib hissəsidir. Bu il muxtar respublikanın ucqar dağ kəndlərindən olan Yuxarı Yaycı kəndi tamamilə abadlaşdırılmış, əhalinin rahat yaşaması üçün lazımi infrastruktur yaradılmışdır. Kənddə uşaqların yaxşı təhsil alması üçün müasir tədrisin tələblərinə cavab verən məktəb binası, dövlət strukturlarının fəaliyyəti üçün kənd mərkəzi tikilmiş, xidmət mərkəzi sakinlərin istifadəsinə verilmiş, yollar abadlaşdırılmış, təbii qazın və elektrik enerjisinin fasiləsiz verilişi təmin olunmuşdur. Dəniz səviyyəsindən 1500 metr yüksəklikdə yerləşən bu kənddə əməkhaqqı və təqaüdə əlavə olaraq 20 faiz yüksəklik pulu da ödənilir. Bir sözlə, bu gün 1132 nəfərin yaşadığı Yuxarı Yaycı kəndində sakinlərin rahatlığı üçün lazım olan bütün tədbirlər görülmüşdür. Bu da dövlətimizin vətəndaşlarına göstərdiyi qayğının daha bir ifadəsidir.

Ali Məclisin Sədri demişdir: Bu gün ölkəmizdə dövlət-cəmiyyət münasibətləri üstün mövqeyə malikdir. Dövlət əhaliyə lazımi qayğı göstərir, onların yaşayış şəraitini yaxşılaşdırır, maddi rifah halını yüksəldir. Vətəndaşlar da bunun qarşılığında dövlətin möhkəmləndirilməsi və inkişafı üçün səylərini əsirgəmir. Sərhəd və dağlıq yaşayış məntəqəsi olan Yuxarı Yaycı kəndində aparılan quruculuq işləri, lazımi infrastrukturun yaradılması, əhalinin rahat yaşayışının təmin olunması da dövlət-cəmiyyət münasibətlərinin tənzimlənməsinin daha bir ifadəsidir. Ona görə də sakinlər yaradılan şəraitdən səmərəli istifadə etməli, tikilənlər, qurulanlar qorunmalı, torpaqlar əkilməli, heyvandarlıq və arıçılıq inkişaf etdirilməlidir. Dövlət strukturları kəndin inkişafına, təmizliyin, yaşıllığın və abadlığın qorunub saxlanmasına diqqəti artırmalıdırlar.

Ali Məclisin Sədri kəndin zəhmətkeş insanlarının bundan sonra da ölkəmizin inkişafına töhfə verəcəklərinə və kənddə məskunlaşmanın artacağına əminliyini bildirmiş, bir daha sakinləri təbrik etmişdir.

Açılışı bildirən lent kəsildikdən sonra kənd mərkəzinə baxış olmuşdur.

Məlumat verilmişdir ki, ikimərtəbəli binada dövlət qurumlarının fəaliyyəti təmin olunmuş, kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, polis sahə, baytarlıq və feldşer-mama məntəqələri, rabitə evi, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, kitabxana və mədəniyyət evi üçün iş otaqları ayrılmış, 45 yerlik iclas zalı istifadəyə verilmişdir.

Kənd kitabxanasının fondunda 4606 kitab vardır. Kitabxanada mütəmadi olaraq tədbirlər keçirilir, guşələr yaradılır, oxucu marağı artırılır. Hazırda kitabxanada “Cəmşid Naxçıvanski-120” və “Kitabi-Dədə Qorqud”un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyi ilə bağlı guşələr yaradılmışdır.

Kənddə baytarlıq xidmətinin təşkili üçün də nümunəvi şərait yaradılmış, baytarlıq məntəqəsi istifadəyə verilmişdir. Bildirilmişdir ki, hazırda Yuxarı Yaycı kəndində heyvandarlıq və arıçılıq inkişaf etdirilir. Hazırda təsərrüfatlarda min başdan artıq iribuynuzlu və xırdabuynuzlu heyvan, 500-ə yaxın arı ailəsi saxlanılır.

Ali Məclisin Sədri Yeni Azərbaycan Partiyası Yuxarı Yaycı kənd ərazi ilk təşkilatının iş şəraiti ilə tanışlığı zamanı demişdir ki, bu gün ölkəmizdəki mövcud inkişafı və sabitliyi Yeni Azərbaycan Partiyası yaratmışdır. Yuxarı Yaycı kəndində aparılan quruculuq işləri, insanların rahatlığının təmin olunması da ümumxalq partiyasına çevrilən Yeni Azərbaycan Partiyası tərəfindən həyata keçirilmişdir.

Yeni Azərbaycan Partiyası Yuxarı Yaycı kənd ərazi ilk təşkilatının sədri Vaqif Rəhimov minnətdarlıq edərək demişdir ki, insanlar kənddə aparılan quruculuq işlərini ulu öndərin siyasi xəttinin bəhrələri kimi dəyərləndirir, daim bu siyasi xəttə sadiqlik nümayiş etdirirlər. Gənclər, ziyalılar Yeni Azərbaycan Partiyasının sırasına qoşulur, kəndin inkişafında yaxından iştirak edirlər.

Rabitə evində poçt bölməsi yaradılmış, kommunal ödənişlərin qəbulu, dövri mətbuatın, gündəlik danışıq və internet kartlarının satışı təşkil olunmuşdur. Həmçinin kəndə 6 kilometr uzunluğunda fiber-optik xətt çəkilmiş, sürətli internetdən istifadə imkanları yaradılmışdır.

Muxtar respublikada əhalinin sağlamlığına xüsusi diqqət yetirilir, kəndlərdə müasir tibb məntəqələri və həkim ambulatoriyaları tikilib istifadəyə verilir. Yuxarı Yaycı Kənd Mərkəzində feldşer-mama məntəqəsinin fəaliyyəti üçün yaradılan şərait də həyata keçirilən səhiyyə islahatlarının tərkib hissəsidir. Məntəqədə müdir, mama və manipulyasiya otaqları vardır. Burada ilkin tibbi yardım avadanlıqları qoyulmuşdur.

Ali Məclisin Sədri kənddə səhiyyə maarifi işinə xüsusi diqqət yetirilməsi, hamilə qadınların və uşaqların sağlamlığının qorunması barədə tapşırıqlar vermişdir.

Binanın ətrafı da abadlaşdırılmış, gülkarlıqlar salınmışdır.

## Yuxarı Yaycıda yeni xidmət mərkəzi fəaliyyətə başlamışdır

Oktyabrın 21-də Yuxarı Yaycı kəndində yeni xidmət mərkəzi də istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Xidmət mərkəzi cari ildə kənddə aparılan quruculuq işləri çərçivəsində inşa edilmişdir. Binada bərbərxana və mağaza fəaliyyət göstərir. Ticarət və məişət xidmətlərinin təşkili sakinlərin rahatlığını təmin etmişdir. Mağazada zəruri ərzaq və sənaye malları ilə yanaşı, kənddə istehsal olunan məhsullar da satışa çıxarılır. Xidmət mərkəzində 2 nəfər işlə təmin olunmuşdur.

*Ardı 3-cü səhifədə*



## Yuxarı Yaycı kənd avtomobil yolu istifadəyə verilmişdir




Muxtar respublikada yol-nəqliyyat infrastrukturunun müasirləşdirilməsi istiqamətində görülən işlərin miqyası ilbəil artır. Bu il Yuxarı Yaycı kənd avtomobil yolu da yenidən qurulmuşdur.

Oktyabrın 21-də avtomobil yolunun açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmiş, yeni yolun istifadəyə verilməsi münasibətilə sakinləri təbrik etmişdir.

Məlumat verilmişdir ki, 5,7 kilometr uzunluğunda yol genişləndirilmiş, asfalt örtük salınmış, 1 selötürücü, 48 su keçidi tikilmiş, 390 metr beton kanal çəkilmişdir. Yolun müasir tələblər səviyyəsində yenidən qurulması nəqliyyat vasitələrinin rahat və təhlükəsiz hərəkətinə imkan verəcəkdir.

* * *

Aparılan tikinti-quruculuq işləri zamanı kəndin rabitə, içməli su, elektrik və təbii qaz təchizatı da yaxşılaşdırılmış, 4800 metr rabitə, 1400 metr elektrik və 300 metr məsafədə qaz xətləri çəkilmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvanda görkəmli pedaqoq və elm xadimi Əziz Şərifin 120 illik yubileyi qeyd olunmuşdur





*Oktyabrın 21-də Naxçıvan Dövlət Musiqili Dram Teatrında görkəmli pedaqoq və elm xadimi Əziz Şərifin 120 illik yubileyi qeyd olunmuşdur.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu Himayəçilik Şurasının sədr müavini Əli Həsənov tədbirdə çıxış edərək demişdir ki, Azərbaycanın qədim Naxçıvan torpağı görkəmli şəxsiyyətlər yetişdirib. Belə şəxsiyyətlərdən biri də Əziz Qurbanəli oğlu Şərifzadədir. Bu il Əziz Şərifin anadan olmasının 120 illiyi tamam olur. Onun Azərbaycan elmi və ədəbiyyatı qarşısında müstəsna xidmətlərini nəzərə alan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 2015-ci il yanvarın 26-da "Görkəmli pedaqoq və elm xadimi Əziz Şərifin 120 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalamış və yubileylə əlaqədar Tədbirlər Planını təsdiq etmişdir. Tədbirlər Planına əsasən muxtar respublikanın təhsil və mədəniyyət müəssisələrində Əziz Şərifin həyat və yaradıcılığını əks etdirən guşələr yaradılmış, elmi və oxucu konfransları keçirilmişdir. Bununla yanaşı, Əziz Şərifin 120 illiyi ilə bağlı poçt markaları buraxılmış, "Naxçıvan" jurnalının bir nömrəsi Əziz Şərifin yubileyinə həsr olunmuşdur. İl ərzində Əziz Şəriflə əlaqədar elmi tədqiqatların əhatə dairəsi daha da genişləndirilmiş, "Əziz Şərif: taleyi və sənəti" kitabı çap olunmuş, Naxçıvan Dövlət Televiziyası Əziz Şərif barədə sənədli film hazırlamışdır. Ali Məclis Sədrinin tapşırığı əsasında Naxçıvan şəhərində Əziz Şərifin adını daşıyan küçə, eləcə də Əziz Şərifin və yaxınlarının məzarları abadlaşdırılmışdır. Bu gün isə muxtar respublika rəhbərinin tövsiyəsi ilə Əziz Şərifin 120 illik yubileyi yüksək səviyyədə – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu Himayəçilik Şurasının birgə təşkilatçılığı və muxtar respublika ziyalılarının, alim və tədqiqatçılarının iştirakı ilə geniş tərkibdə qeyd olunur.

Əli Həsənov Əziz Şərif irsinə və şəxsiyyətinə göstərdiyi böyük diqqət və qayğıya görə yubiley tədbirinin iştirakçıları adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova dərin minnətdarlığını bildirmişdir.

Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Əziz Şərifin 120 illik yubileyinin keçirilməsi ilə əlaqədar verdiyi Sərəncamın çox mühüm əhəmiyyəti vardır. Bu Sərəncam bir tərəfdən yaradıcı şəxslərə və ziyalılara göstərilən dövlət qayğısını yüksək səviyyədə ifadə edirsə, ikinci tərəfdən bu, 1996-cı ildən başlayaraq muxtar respublika Ali Məclisi Sədrinin müəyyənləşdirdiyi xəttin – tarixi şəxsiyyətləri yenidən xalqa və ictimai həyata qaytarmaq, onlar barəsində elmi tədqiqatlar aparmaq və əsərlərini nəşr etdirmək xəttinin davamıdır. Ali Məclis Sədrinin bu istiqamətdə verdiyi tapşırıqların mühüm elmi və ictimai nəticələri olmuş, Bəhruz Kəngərlinin, Məhəmməd Tağı Sidqinin, Məhəmməd ağa Şahtaxtlının, Behbud ağa Şahtaxtinskinin, Cəmşid Naxçıvanskinin, Məmməd Səid Ordubadinin, Yusif Məmmədəliyevin, İslam Səfərlinin, Məmməd Arazın, Hüseyn Cavidin, Cəlil Məmmədquluzadənin yubileyləri keçirilmiş, müstəqillik dövrünün yaratdığı yeni imkanlardan istifadə olunaraq bu şəxsiyyətlər barədə elmi araşdırmalar aparılmış, onların yaradıcılıqları, keçdikləri nümunəvi həyat yolu yenidən ictimai-pedaqoji və elmi-bədii düşüncənin predmetinə çevrilmişdir. Bu baxımdan böyük ədəbiyyatşünas alim və tədqiqatçı, görkəmli pedaqoq, publisist və tərcüməçi Əziz Şərifin də xidmətləri unudulmamışdır. Ali Məclis Sədrinin Sərəncamında çoxcəhətli fəaliyyəti ilə xalqa və ədəbiyyata xidməti özünə həyat kredosu seçmiş Əziz Şərif haqqında deyilir ki, XX əsrdə elmi-ədəbi fikrin inkişafında mühüm xidmətləri olan bu böyük şəxsiyyət ***"Molla Nəsrəddin məktəbindən aldığı ideyaları ədəbiyyatda, elmdə və ictimai mühitdə gerçəkləşdirməklə Azərbaycan ədəbiyyatşünaslığının möhkəm bünövrəsini yaratmışdır. O, xalqımızın milli-mədəni irsinin fədakar təbliğatçısı olmuş, sağlığında pedaqoq və elm xadimi kimi şöhrət qazanmışdır".***

Əli Həsənov demişdir ki, yeniyetməlik illərindən mətbuatda müxtəlif mövzularda ədəbi-tənqidi məqalələr dərc etdirən Əziz Şərif sonralar Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinin yaradıcılığı ilə bağlı tədqiqatlar aparmış, bir çox məktub, sənəd və fotoşəkillər, xeyli qiymətli əlyazmalar aşkarlamış, elmi-ədəbi mühitə dəyərli töhfələr vermişdir. Əziz Şərifin əsərləri XIX-XX əsrlər Azərbaycan ədəbiyyatı, mədəniyyəti və mətbuat tarixini, ədəbi-mədəni əlaqələrini öyrənmək baxımından müstəsna əhəmiyyətə malikdir. Xalqımızın böyük ziyalısı özündən sonra qiymətli irs qoyub getmişdir. Bunların içərisində memuar və ya xatirə ədəbiyyatı adlandırılan materiallar böyük dəyərə malikdir. "Ana dilindən başqa heç bir dil bilməyən yazıçı, nə qədər istedadlı olsa da, yüksək bədii tərcümə yarada bilməz" – deyən Əziz Şərif bədii tərcümə sahəsində uğurlu fəaliyyəti ilə də ədəbiyyatımızın inkişafına böyük töhfələr vermişdir. Professor Əziz Şərif çoxşaxəli yaradıcılıq fəaliyyəti, ləyaqətli vətəndaş mövqeyi ilə Azərbaycan ziyalılarının ən mötəbər nümayəndələri sırasında özünəməxsus yer tutur. Bu gün bu yerin məna və əhəmiyyəti – Azərbaycan naminə xidmət məramı özünü bütün aydınlığı ilə göstərir, gələcəkdə də göstərəcəkdir.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Himayəçilik Şurasının üzvü İsmayıl Hacıyev "Əziz Şərifin həyat və yaradıcılığı" mövzusunda çıxış edərək demişdir ki, Əziz Şərif ilk təhsilini Naxçıvan şəhər rus-tatar məktəbində almışdır. Əziz Şərif 1915-ci ildə Tiflis gimnaziyasında, 1915-1917-ci illərdə Moskva Kommersiya İnstitutunda oxumuş, 1935-ci ilə qədər Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsində və Xalq Komissarları Şurasında müxtəlif vəzifələrdə işləmişdir. Bununla yanaşı, o, 1920-30-cu illərdə Tiflisdə mətbuat, nəşriyyat sahəsində çalışıb, sonra Tiflis Müəllimlər İnstitutunda dərs deyib. 1943-cü ildə Moskvada Maksim Qorki adına Dünya Ədəbiyyat İnstitutunun tənqid bölməsini bitirib. Əziz Şərif 1947-ci ildə "Əbdürrəhim bəy Haqverdiyevin dramaturgiyası" mövzusunda namizədlik, 1956-cı ildə isə "Cəlil Məmmədquluzadənin həyat və yaradıcılığının birinci dövrü (1869-1905)" mövzusunda doktorluq dissertasiyaları müdafiə etmiş, 1962-ci ildə professor elmi adına layiq görülmüşdür. 1962-ci ildən o, M.V.Lomonosov adına Moskva Dövlət Universitetində professor, kafedra müdiri kimi səmərəli fəaliyyət göstərmiş, Azərbaycan ədəbiyyatını rusdilli auditoriyada layiqincə tədris və təbliğ etmişdir.

"Əziz Şərifin tədqiqatlarında mollanəsrəddinçilər və dünya ədəbiyyatı problemi" mövzusundakı çıxışında Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru İman Cəfərli diqqətə çatdırmışdır ki, Azərbaycan ədəbiyyatşünaslığında Əziz Şərifin adı mollanəsrəddinşünaslığın inkişaf tarixində xüsusi ehtiramla çəkilir. Alimin ayrı-ayrı mollanəsrəddinçilərin dünya ədəbiyyatı ilə bağlılıqları haqqında söylədiyi fikirlər bu aktual problemin öyrənilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Əziz Şərifin mollanəsrəddinçilər və dünya ədəbiyyatı problemi ilə bağlı müddəalarına daha çox alimin Cəlil Məmmədquluzadəyə dair yazdığı tədqiqat əsərlərində rast gəlirik. Böyük alimin "Molla Nəsrəddin" necə yarandı" monoqrafiyası Cəlil Məmmədquluzadənin ömür və sənət yolunu əhatəli şəkildə dəyərləndirmək baxımından qiymətlidir.

Tədbirdə "Naxçıvan" Universitetinin dosenti, filologiya üzrə fəlsəfə doktoru Nurlana Əliyeva "Əziz Şərif və Naxçıvan ədəbi mühiti" mövzusunda çıxış etmişdir. Qeyd olunmuşdur ki, Əziz Şərifin ilk yazısı 1906-cı ildə "Molla Nəsrəddin" jurnalının 16-cı sayında dərc olunan "Naxçıvandan məktublar" felyetonudur. İlk yazısının belə doğulub boya-başa çatdığı Naxçıvan torpağı ilə, buradakı ədəbi mühitlə bağlı olması ədibin vətəninə olan sevgisinin, həmyerlilərinə olan məhəbbətinin təzahürüdür. O, hər zaman Naxçıvanla, buradakı ədəbi proseslə, ictimai-ədəbi həyatla, maarif və mədəniyyətin inkişafı ilə, Naxçıvan ziyalıları və maarifpərvərləri ilə daim maraqlanmış, Naxçıvan ədəbi mühiti ilə əlaqəsini heç zaman kəsməmiş, bu mühit haqqında əsaslı fikirlər söyləmişdir. Onun Əliqulu Qəmküsar, Rzaqulu Nəcəfov, Rza Təhmasib, Hüseyn Cavid ilə bağlı xatirələri, söylədiyi qiymətli fikirlər, yazdığı məqalələr o dövrün mədəni inkişafının mənzərəsini gözümüz önündə canlandırır. Ədəbiyyatşünas alim vətənindən uzaqda yaşamasına baxmayaraq, tez-tez Naxçıvana gəlmiş, ziyalılarla, tələbələrlə görüşmüş, mühazirələr oxumuş, öz dəyərli məsləhətləri ilə buradakı ədəbi mühitə yol açmışdır.

Yubiley tədbirinin sonunda görkəmli pedaqoq və elm xadimi Əziz Şərifin məqalələrindən parçalar oxunmuşdur.

**"Şərq qapısı"**

## Tələbələrlə növbəti görüş

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" 2015-ci il 27 iyul tarixli Sərəncamına uyğun olaraq, Naxçıvan Dövlət Universitetinin Sosial iş ixtisası Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin hamiliyinə verilib.

Sərəncamdan irəli gələn vəzifələrin icrası ilə bağlı nazirlik 2015-2016-cı tədris ili üçün tədbirlər planı hazırlayıb. Tədbirlər planı çərçivəsində Naxçıvan Dövlət Universitetində Sosial iş ixtisası üzrə təhsil alan tələbələr Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yanında Dövlət Sosial Təminat Xidmətində, Naxçıvan Şəhər Əhalinin Sosial Müdafiəsi Mərkəzində, Naxçıvan Regional Peşə Tədris Mərkəzində və Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində həmin qurumların iş prosesləri ilə tanış olublar.

Oktyabrın 21-də isə bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı olaraq nazirliyin əməkdaşları ilə Naxçıvan Dövlət Universitetində Sosial iş ixtisasında təhsil alan tələbələrlə görüş keçirilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəisi Elnar Hüseynov, Dövlət Məşğulluq Xidmətinin rəisi Sevindik Vəliyev və nazirliyin məsləhətçi-hüquqşünası Elmin Fərəcov çıxışlarında nazirliyin iş prinsipindən, muxtar respublika sakinlərinə, o cümlədən sosial müdafiəyə ehtiyacı olan insanlara göstərilən xidmətlərdən bəhs ediblər.

Çıxış edənlər vurğulayıblar ki, muxtar respublikada sosial sahə dövlətimizin daim diqqət mərkəzində saxlanılır, bu sahənin maddi-texniki bazası davamlı olaraq gücləndirilir, vətəndaşlara göstərilən müxtəlif növ sosial xidmətlərin səviyyəsi yüksəldilir.

Qeyd olunub ki, təhsil müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi bilikli, ixtisaslı gənc kadrların hazırlanmasına imkanlar yaradacaqdır.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası***
***Əmək və Əhalinin Sosial Müdafiəsi***
***Nazirliyinin mətbuat xidməti***

## Ordubad rayonunda parlament seçkilərinə hazırlıq yüksək səviyyədədir

***Seçkilər hər bir xalqın tarixində mühüm rol oynayan, onun gələcək inkişaf yolunu müəyyənləşdirən mühüm siyasi proses kimi xarakterizə olunur. Bu prosesin məntiqi yekunu olaraq hər bir xalq öz taleyini inandığı siyasi qüvvəyə və insanlara etibar edir. 2015-ci il noyabrın 1-i müstəqil Azərbaycanın tarixinə növbəti parlament seçkiləri kimi daxil olacaq.***

Dinamik inkişaf yolunda olan Naxçıvan Muxtar Respublikası ictimai-siyasi fəallığı ilə də diqqəti cəlb edir. İndiyədək ölkəmizdə keçirilmiş bütün seçkilərin muxtar respublikada yüksək səviyyədə baş tutması bunu təsdiqləyir. Növbəti parlament seçkilərinin də demokratik, ədalətli keçirilməsi üçün bütün zəruri tədbirlər həyata keçirilir. 7 saylı Ordubad-Culfa Seçki Dairəsində də seçkilərə hazırlıq yüksək səviyyədə aparılır. Dairə 48 məntəqəni əhatə edir. Dörd məntəqə seçkilərə 5 gün qalmış yaradılacaqdır. Məntəqələrin çoxu yeni tikilmiş binalarda yerləşdirilmiş, bəziləri isə təmir edilərək hər cür şərait yaradılmışdır. Seçki materialları, daşınan və daşınmaz qutular, kabinələr verilmiş, məntəqələr telefonlaşdırılmış, generatorlarla təmin edilmişdir.

Qeyd edək ki, 7 saylı Ordubad-Culfa Seçki Dairəsi üzrə 34609 seçici səs verəcəkdir ki, onlardan 29008 nəfəri Ordubad rayonundandır. Dairə üzrə 682 nəfər, o cümlədən Ordubad rayonu üzrə 555 nəfər ilk dəfə səs verəcək gənclərdir. Seçkilərin şəffaflığının izlənməsi üçün 5 məntəqədə veb-kameralar quraşdırılmışdır.

Dairənin Ordubad rayonu ərazisində yerləşən 4 və 5 saylı məntəqələrinə baş çəkib vəziyyətlə tanış olduq. Məntəqələr seçkilərə tam hazırdır. 4 saylı məntəqə Ordubad şəhər 3 nömrəli tam orta məktəbin binasında yerləşir. Səliqəli, işıqlı, yüksək zövqlə tərtib olunmuş məntəqədir. Səs vermək üçün hər cür şərait yaradılmışdır. Burada 1149 seçici qeydə alınmışdır.

Məntəqə seçki komissiyasının sədri, katib və üzvləri, habelə seçkini izləyəcək beynəlxalq və yerli müşahidəçilər üçün yerlər müəyyənləşdirilmiş, stol və stullar qoyulmuşdur. Lövhədə seçicilərin yaşadıqları ünvanlar üzrə siyahısı vurulmuşdur. Hər bir seçici öz adının seçki siyahısında olub-olmadığını həmin siyahıda dəqiqləşdirə bilər.

5 saylı seçki məntəqəsi isə Ordubad şəhərindəki İnternat Məktəbində yerləşir. Məntəqə seçki komissiyasının sədri İlkin Quliyev bildirdi ki, məntəqənin əhatə etdiyi ərazidə 810 seçici yaşayır, onlardan 11 nəfəri ilk dəfə səs verəcəkdir. Məntəqədə hər şey Azərbaycan Respublikası Seçki Məcəlləsinin tələblərinə uyğun təşkil edilmişdir. Ümumiyyətlə, burada vətəndaşların öz iradələrini azad şəkildə, heç bir maneə olmadan ifadə etmələrinə tam şərait yaradılmışdır.

Komissiyanın sədri sonda onu da vurğuladı ki, seçki demokratik proseslərin atributlarından biridir. Şəffaf, azad və ədalətli seçki keçirilməsi ölkədə demokratiyanın inkişafına önəm verilməsinin təzahürüdür. Artıq Azərbaycan bu sahədə təcrübə qazanmış və beynəlxalq aləmdə demokratik seçkilər keçirilməsində siyasi iradə nümayiş etdirən ölkə kimi tanınmışdır. Əlbəttə, builki parlament seçkiləri də tam demokratik və şəffaf şəraitdə keçiriləcəkdir.

✍ **Sara ƏZİMOVA**

## “Torpaq üzərində mülkiyyət hüququnun təmin edilməsi” mövzusunda maarifləndirici tədbir keçirilmişdir



***Şərur Rayon İcra Hakimiyyətində inzibati ərazi dairəsi üzrə nümayəndələrin və bələdiyyə sədrlərinin iştirakı ilə keçirilən tədbiri rayon İcra Hakimiyyəti aparatının şöbə müdiri Səfər Hüseynov açmışdır.***

Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin sektor müdiri İntizar Həziyev “Torpaqların qanunauyğun istifadəsi və mühafizəsi günün tələbidir” mövzusundakı çıxışında bildirmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 19 may tarixli Fərmanı ilə mülkiyyət hüquqlarının tənzimlənməsində vahid idarəçiliyi təmin etmək və torpaq idarəçiliyini təkmilləşdirmək məqsədilə Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi yaradılmışdır. Torpaqların istifadəsi, mühafizəsi və qorunmasına dövlət nəzarəti komitənin fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edir. Komitənin yeni funksiyalarının icrasında yerli icra hakimiyyətləri, fiziki və hüquqi şəxslər, bələdiyyələr və aidiyyəti dövlət qurumları ilə fəaliyyətin koordinasiyası ən vacib amillərdən biri hesab edilir. Bu baxımdan yerlərdə mütəmadi olaraq maarifləndirici tədbirlərin keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Məqsəd torpaq münasibətlərinin tənzimlənməsində komitənin fəaliyyətini aidiyyəti dövlət orqanları, bələdiyyələr, hüquqi və fiziki şəxslərlə əlaqələndirmək və bu barədə ictimaiyyəti məlumatlandırmaqdır.

Diqqətə çatdırılmışdır ki, torpaqların qanunauyğun istifadəsinə dair 2015-ci ilin sentyabr ayında muxtar respublikanın şəhər və rayonlarında komitənin müfəttişləri tərəfindən yoxlamalar aparılmış, bu yoxlamalar zamanı bir sıra qanun pozuntularına rast gəlinmişdir. Həmin qanun pozuntularını təhlil edərkən məlum olur ki, bəzi vətəndaşlar mülkiyyətlərində olan torpaq sahələrinə bitişik bələdiyyə torpaqlarını, yaxud kənd təsərrüfatı məhsullarının istehsalı məqsədilə onlara verilmiş pay torpaqlarını qeyri-qanuni olaraq çəpərləyərək istifadə edirlər. Özbaşına tutulmuş bu ərazilərdə əkin və yaxud tikinti işləri aparılır ki, bu da mövcud qanun və qaydalara görə yolverilməzdir.

Vurğulanmışdır ki, ölkəmizdə əhalinin artması müqabilində adambaşına düşən kənd təsərrüfatına yararlı torpaq sahələrinin miqdarı getdikcə azalır. Bu amil nəzərə alınaraq torpaqlardan səmərəli istifadə olunması bu sahəyə cavabdeh orqanların qarşısında duran əsas vəzifələrdən birinə çevrilməlidir. Çünki torpağın qorunması ərzaq bolluğunun yaradılması və ən əsası ətraf mühitin mühafizə edilməsi deməkdir.

İntizar Həziyev bildirmişdir ki, torpaqlardan təyinatına uyğun olaraq istifadə edilməlidir. Yerli icra hakimiyyəti orqanları, torpaq mülkiyyətçiləri və istifadəçiləri, icarəçilər torpaq istifadəçiliyi sahəsindəki hüquq və vəzifələrini bilməklə yanaşı, həm də onlara düzgün və dönmədən əməl etməlidirlər.

Torpaq üzərində mülkiyyət hüququnun pozulmasına görə məsuliyyət haqqında danışan Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsinin rəisi Faiq Səfərov bildirmişdir ki, Azərbaycan Respublikası Konstitusiyasında torpaq üzərində dövlət, bələdiyyə və xüsusi mülkiyyət formaları təsbit edilmişdir. Dövlət mülkiyyətində olan torpaqlar dövlətin xüsusi mülkiyyətidir və onlar qanunvericiliklə müəyyən olunmuş qaydada istifadəyə və icarəyə verilə bilər. Müvafiq ərazi vahidi daxilində dövlət mülkiyyətində saxlanılan və xüsusi mülkiyyətə verilən torpaqlar istisna olmaqla, qalan torpaqlar bələdiyyə mülkiyyətinə verilir. Qanunvericiliyə əsasən, müəyyən kateqoriyaya aid edilmiş torpaqların başqa məqsədlər üçün istifadəsinə yalnız onun təyinatının dəyişdirilməsindən sonra yol verilə bilər. Torpaqların kateqoriyasının qanunsuz dəyişdirilməsi isə İnzibati Xətalar Məcəlləsinin 90-cı maddəsində nəzərdə tutulmuş qaydada məsuliyyətə səbəb olur. Torpaq istifadəçiləri və icarəçiləri tərəfindən başqasının mülkiyyətində olan torpağın alınıb-satılması, bağışlanması, torpaq sahələrinin özbaşına dəyişdirilməsi barədə bağlanan, habelə torpaq mülkiyyətçilərinin qanunvericilikdə nəzərdə tutulmuş qaydaları pozmaqla bağladıqları əqdlər etibarsız hesab edilir.

Faiq Səfərov vurğulamışdır ki, torpaqların özbaşına tutulması, yəni zəbt edilməsi qanunla qadağan olunur və bu əməli törətmiş şəxslər Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 188-ci maddəsinin tələbləri ilə məsuliyyətə cəlb edilirlər. Torpaqların zəbt olunmasının qarşısını almayan cavabdeh şəxslər isə bu Məcəllənin müvafiq maddəsinə uyğun olaraq səhlənkarlıq əməlinə görə məsuliyyət daşıyırlar.

Tədbirdə torpaq üzərində mülkiyyət hüququnun pozulmasına, onların istehsalat və məişət tullantıları ilə çirkləndirilməsinə, yerli icra hakimiyyəti orqanlarının razılığı alınmadan binaların və qurğuların tikilməsinə görə məsuliyyətlər barədə də geniş izahat verilmişdir.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılmışdır.

**Elman MƏMMƏDOV**

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilən “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı”nın icrası ilə bağlı Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi növbəti tədbir keçirib.*

## İntellektual və kinekt oyunları üzrə yarış

Oktyabrın 21-də Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində kompüter və kinekt oyunları üzrə keçirilən yarışda sağlamlıq imkanları məhdud 12 uşaq iştirak edib. Yarış iki kompüter və bir kinekt oyunları olmaqla, üç turdan ibarət olub. İştirakçılar hər biri 4 nəfər olmaqla, üç qrupda yarışaraq qabiliyyət və bacarıqlarını nümayiş etdiriblər. “Sudoku”, “Zəka topu” kompüter və “Qolf” kinekt oyunlarında verilən tapşırıqları tez və düzgün yerinə yetirən iştirakçı qalib hesab edilib.

Hər turun qalibi mükafatlandırılıb, yarışın digər iştirakçılarına isə həvəsləndirici hədiyyələr təqdim edilib.

Bu istiqamətdə tədbirlərin təşkilində əsas məqsəd sağlamlıq imkanları məhdud uşaqların intellektual inkişafına, onların cəmiyyətə inteqrasiyasına nail olmaqdır.

**Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti**

## İşaxtaran vətəndaşların nəzərinə!

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti Naxçıvan Regional Peşə Tədris Mərkəzində bərbər peşəsi üzrə kurs təşkil edir.

Tədrisin müddəti 2 aydır. Muxtar respublikanın rayonları üzrə tələbat aşağıdakı kimidir:

| S/№ | Kəndin adı | Vakant yer |
|---|---|---|
| | **Şərur rayonu üzrə** | |
| 1. | Yuxarı Aralıq | 1 |
| 2. | Püsyan | 2 |
| 3. | Xanlıqlar | 2 |
| 4. | Diyadin | 1 |
| 5. | Şahbulaq | 1 |
| 6. | Yuxarı Daşarx | 1 |
| | **Cəmi:** | **8** |
| | **Babək rayonu üzrə** | |
| 1. | Güznüt | 1 |
| 2. | Qahab | 1 |
| 3. | Kərimbəyli | 1 |
| | **Cəmi:** | **3** |
| | **Ordubad rayonu üzrə** | |
| 1. | Nəsirvaz | 1 |
| 2. | Xurs | 1 |
| 3. | Bist | 1 |
| 4. | Parağa | 1 |
| | **Cəmi:** | **4** |
| | **Culfa rayonu üzrə** | |
| 1. | Xanəgah | 1 |
| 2. | Milax | 1 |
| 3. | Qızılca | 1 |
| | **Cəmi:** | **3** |
| | **Şahbuz rayonu üzrə** | |
| 1. | Mərəlik | 1 |
| 2. | Badamlı | 1 |
| 3. | Nursu | 1 |
| 4. | Aşağı Qışlaq | 1 |
| 5. | Kolanı | 1 |
| 6. | Ayrınc | 1 |
| 7. | Güney Qışlaq | 1 |
| 8. | Qızıl Qışlaq | 1 |
| 9. | Biçənək | 1 |
| | **Cəmi:** | **9** |
| | **Kəngərli rayonu üzrə** | |
| 1. | Təzəkənd | 1 |
| 2. | Xok | 2 |
| 3. | Şahtaxtı | 1 |
| | **Cəmi** | **4** |

Əqli və fiziki potensialları bərbər peşəsi üzrə çalışmağa uyğun olan sağlamlıq imkanları məhdud şəxslər də müraciət edə bilərlər.

Kursu müvəffəqiyyətlə bitirənlər qeyd olunan kəndlərdə fəaliyyət göstərən xidmət mərkəzindəki bərbərxanada işlə təmin olunacaqlar.

Peşə hazırlığı kursunda iştirak etmək istəyənlər 2015-ci il noyabr ayının 15-dək tələb olunan aşağıdakı sənədləri yaşadıqları ərazi üzrə məşğulluq mərkəzlərinə təqdim edə bilərlər:

*1. Yaşayış yerindən arayış*
*2. Şəxsiyyət vəsiqəsinin surəti*
*3. Tibbi yoxlama haqqında arayış.*

***Əlaqə telefonu: 545-32-33***

### İtmişdir

Naxçıvan şəhəri, V.Qasımov küçəsi, ev 6-da yaşamış Həsənov Səməd Hüseyn oğlunun adına olan 402 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Sara Əzimova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 790